“Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır”.

Heydər ƏLİYEV

AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 10 sentyabr 2014-cü il № 69 (1886) | Qiyməti 25 qəpik

Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyaya işgüzar səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO-nun sammitində iştirak etmək üçün sentyabrın 3-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına işgüzar səfərə gedib.

* * *

Sentyabrın 4-də Uelsin Nyuport şəhərində NATO-nun sammiti işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammitin açılışında iştirak edib.

Tədbirdə Alyansa üzv olan və İSAF proqramında iştirak edən tərəfdaş ölkələrdən, BMT və digər beynəlxalq təşkilatlardan nümayəndələr iştirak ediblər. Həmçinin BMT-nin və Avropa İttifaqının ali nümayəndələri də sammitə qatılıblar.

NATO-nun baş katibi Anders Foq Rasmussen və Böyük Britaniyanın Baş naziri Devid Kemeron Prezident İlham Əliyevi və digər dövlət və hökumət başçılarını salamladılar.

Sammitin gündəliyinə Ukrayna hadisələri, Əfqanıstanın gələcəyi, yeni təhdidlərə qarşı mübarizə, təhlükəsizliyin təminə töhfə verən silahlı qüvvələrə dəstəyin artırılması, əməkdaşlığın möhkəmləndirilməsi, İraq və Suriya böhranı ilə bağlı məsələlər daxil edilib.

Sammitin Əfqanıstan üzrə görüşündə çıxış edən NATO-nun baş katibi Anders Foq Rasmussen dövlət və hökumət başçılarını salamladı. Bildirildi ki, bu görüş təhlükələrin yaşandığı dünyada sabitliyə nail olmaq istiqamətində önəmli tədbirdir. NATO-nun öz əməliyyatlarının mühüm hissəsini Əfqanıstanda həyata keçirdiyini deyən A.F.Rasmussen İSAF qüvvələrinin hələ də bu ölkədə xidmət keçdiyini diqqətə çatdırdı. NATO-nun məhz onların xidmətləri sayəsində bu gün dünyada ən güclü Alyansa çevrildiyini vurğulayan baş katib Əfqanıstanda sabitliyin qorunmasının ilin sonunadək yerli təhlükəsizlik qüvvələrinə təhvil veriləcəyini bildirdi, Əfqanıstana dəstəyin bundan sonra da davam etdiriləcəyini söylədi. Baş katib gündəlikdə nəzərdə tutulan məsələlərlə bağlı müzakirələrin məhsuldar keçəcəyinə əminliyini ifadə etdi.

Sonra Əfqanıstanda həlak olan hərbçilərin xatirəsi ehtiramla yad olundu.

Böyük Britaniyanın Baş naziri Devid Kemeron da sammitin Uelsdə keçirilməsindən məmnun olduğunu dedi. "NATO bizim gələcəyimiz üçün çox vacib alyansdır", - deyən Devid Kemeron İSAF proqramında iştirak etməklə Əfqanıstanda təhlükəsizliyə töhfə verən ölkələrə təşəkkür etdi. Bildirdi ki, NATO Əfqanıstandakı missiyasını uğurla başa vurur və bu ölkədə ordunun yaradılması ilə bağlı əldə olunan nəticələrdən qürur hissi keçirir.

Azərbaycan Prezidenti İlham Əliyev sammitdə çıxış edib.

- Hörmətli cənab baş katib. Xanımlar və cənablar.

Azərbaycan ilə NATO arasında tərəfdaşlığın 20 ili ərzində ölkəmiz Alyansın bir çox fəaliyyət sahəsinə töhfə verən etibarlı tərəfdaşa çevrilib.

Azərbaycan regional təhlükəsizlik və sabitlikdə mühüm rol oynayır. Bununla belə, bu gün regionumuzdakı təhlükəsizliyə ən böyük hədə Azərbaycan ərazisinin 20 faizini təşkil edən Dağlıq Qarabağ və yeddi ətraf rayonu işğal altında saxlayan Ermənistanın işğalçılıq siyasətidir. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirib və bunun nəticəsində 1 milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Əfsuslar olsun ki, Ermənistan onlara məhəl qoymamaqda davam edir və münaqişə həll olunmamış qalır. Münaqişə beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü əsasında həll edilməlidir.

Biz NATO-nun bu məsələ ilə bağlı mövqeyini və əvvəlki sammitlərdə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə verdiyi tam dəstəyi yüksək dəyərləndiririk. Biz qətiyyətlə inanırıq ki, NATO-nun beynəlxalq hüququn bu cür mühüm hissəsinə sadiqliyi bundan sonra da davam edəcək. Beləliklə, o, ədaləti bərpa etməyə və beynəlxalq səviyyədə tanınmış sərhədləri güc hesabına dəyişmək kimi səhv düşüncədən yayındırmağa birmənalı şəkildə yardım edir.

Azərbaycan Əfqanıstana uzunmüddətli inkişafın təmin edilməsi üçün hərtərəfli töhfə verir. Azərbaycan bu sammitin bütün üç sahəsinə töhfə verən NATO-nun 5 tərəfdaşından biridir. Azərbaycanın hərbi kontingenti lap ilkin vaxtlardan İSAF qüvvələrində xidmət edir. Azərbaycanın müxtəlif akademiyalarında Əfqanıstanın hüquq mühafizə və hökumət rəsmiləri üçün geniş təlim proqramları həyata keçirilir. Əfqanıstanın Milli Ordusunun Qəyyumluq Fonduna 3 milyon avro keçirilib, digər 1 milyon isə istehkam əməliyyatlarına sərf olunub.

İSAF qüvvələri üçün məhvetmə gücünə malik olmayan malların tranzitinin 40 faizi Azərbaycan tərəfindən təmin edilir. Bundan əlavə, gələcəkdə iştirak edəcəyimiz "Qətiyyətli dəstək" əməliyyatı üçün mühüm tranzit imkanları yaradılacaq Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilməsi gələn bir neçə ay ərzində başa çatdırılmalıdır. Xəzər regionunda ən böyük Azərbaycan Beynəlxalq Dəniz Limanı ilə birgə bu dəmir yolu xətti həm bütün region, həm Əfqanıstan üçün böyük ticari və iqtisadi imkanlar açacaq. Bu, Uzaq Şərq ilə Avropanı birləşdirən marşrutun tam ortasında yerləşən Əfqanıstana iqtisadi inkişaf verə bilər. Müstəqilliyin ilk illərində durğunluq və böhrandan davamlı sabitlik və sürətli iqtisadi artıma keçmiş ölkə kimi Azərbaycan öz təcrübəsini Əfqanıstan ilə bölüşməyə və həmin ölkədə müxtəlif yenidənqurma və sərmayə layihələrində iştirak etməyə hazırdır. Sağ olun.

* * *

Sentyabrın 4-də Uelsdə NATO sammiti çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın görüşü olub.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etməsindən məmnunluq ifadə olundu. Azərbaycan ilə Fransa arasında əməkdaşlığın müxtəlif sahələrdə daha yaxşı perspektivlərinin olduğu vurğulandı.

Söhbət zamanı dövlət başçıları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ətrafında geniş fikir mübadiləsi apardılar.

* * *

Sentyabrın 4-də Uelsdə Azərbaycan Prezidenti İlham Əliyevin, Ermənistan prezidenti Serj Sarkisyanın və ABŞ dövlət katibi Con Kerrinin birgə görüşü olub.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

AzərTAc-ın materialları əsasında

Prezident Rəcəb Tayyib Ərdoğan:
Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli böyük önəm daşıyır

Uelsin Nyuport şəhərində keçirilən NATO sammitində çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Alyansın Azərbaycana verdiyi vədlərin yerinə yetirilməsinin vacib olduğunu qeyd edib.

AzərTAc Anadolu Agentliyinə istinadən xəbər verir ki, Türkiyə Prezidenti Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinin böyük önəm daşıdığını vurğulayıb.

"The Economist" jurnalı:
Dağlıq Qarabağ qanuni olaraq Azərbaycanın ərazisidir

Böyük Britaniyanın "The Economist" jurnalında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən yazı yerləşdirilib.

Yazıda münaqişənin tarixindən bəhs edilir, hazırkı vəziyyəti təhlil olunur. Beynəlxalq hüquqa əsasən Azərbaycanın ərazisi sayılan Dağlıq Qarabağın ermənilər tərəfindən işğal edildiyi bildirilir.

Qeyd edilir ki, beynəlxalq ictimaiyyət Ukrayna hadisələrində olduğu kimi, Dağlıq Qarabağ münaqişəsinin həllinə münasibətdə də eyni ciddiliyi göstərməli, Ermənistana sanksiyalar tətbiq olunmalıdır.

AzərTAc

Ermənistan Müdafiə Nazirliyinin bəyanatına cavab

Müdafiə Nazirliyi bildirir ki, Yerevandakı hərbi-siyasi rejim növbəti dəfə Ermənistan Müdafiə Nazirliyinin yaydığı bəyanatla bu ölkədəki acınacaqlı vəziyyəti etiraf etmək məcburiyyətində qalıb.

Həqiqətən də, ağır iqtisadi vəziyyət, yoxsulluq səviyyəsinin yüksəlməsi, inflyasiyanın sürətlənməsi, demoqrafik durum, kütləvi miqrasiya Ermənistandakı sosial-iqtisadi şəraiti partlayış həddinə çatdırıb.

Ermənistandan fərqli olaraq Azərbaycanda Silahlı Qüvvələrimizin şəxsi heyətinin döyüş hazırlığı, mənəvi-psixoloji vəziyyəti dövlətimizin və onun rəhbərliyinin diqqət mərkəzində olduğu kimi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması və maddi-texniki təminatının artırılması da möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin birbaşa nəzarəti və qayğısı əhatəsindədir.

İyul ayının sonları və avqustun əvvəllərində qoşunların təmas xəttində xeyli sayda canlı qüvvə sarıdan itki verən erməni tərəfi bu gün də özünə gələ bilməyib. Düşmən tərəfinin hərbi rejimi həmişə olduğu kimi yenə də həqiqətə uyğun olmayan məlumatları qəsdən erməni ictimaiyyətinə zorla yedirdir və onu informasiya vakkumunda saxlayır.

Bir çox beynəlxalq iqtisadi layihələrdən kənarda qalan Ermənistanın hərbi-siyasi rejimi daxili problemləri həll etmək əvəzinə, erməni xalqının fikrini əsas məsələlərdən yayındıraraq günahı Azərbaycan tərəfində görməyə üstünlük verir.

Ermənistanın hərbi potensialının və iqtisadiyyatının bütövlükdə ayrı-ayrı xarici dairələrin əlində cəmləşməsi, silahlanmadakı hərbi texnikanın döyüşə hazır vəziyyətdə olmaması və taktiki-texniki baxımdan köhnəlməsi, peşəkar hərbi təhsil sisteminin tam formalaşmaması, ordudakı intizamsızlıq, korrupsiya, qeyri-döyüş itkilərinin, yoluxucu xəstəliklərin, çağırışdan boyun qaçıranların sayının kəskin surətdə artması, demoqrafik vəziyyətlə əlaqədar hərbi hissələrdə və ön xətdə əsgər çatışmazlığı, bu səbəbdən də onların əvəzinə qeyri-peşəkar yerli əhalinin sənqərlərdə istifadə edilməsi, müqaviləli xidmətə keçid adı altında kriminal keçmişə sahib və Ermənistanın müxtəlif oliqarx dairələrinin nəzarətində olan silahlı qruplaşmaların üzvlərinin orduya cəlb olunması qonşu dövlətin hərbi təhlükəsizlik sektorunun hansı vəziyyətdə olmasını açıq-aydın nümayiş etdirir.

Azərbaycan Müdafiə Nazirliyi Ermənistan Müdafiə Nazirliyinin yaydığı bəyanatı ciddi qəbul etmir və bunu ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin qayğısı nəticəsində Silahlı Qüvvələrimizin artan hərbi potensialı qarşısında ruhdan düşən narazı erməni ictimaiyyətinə ünvanlanan təsəlli kimi qiymətləndirir.

NATO sammitinin yekun bəyannaməsində Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi Türkiyə mediasının diqqət mərkəzində

NATO-nun Uelsdə keçirilmiş sammitinin yekun bəyannaməsində Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinin dəstəklənməsi məsələsi Türkiyə kütləvi informasiya vasitələrinin diqqət mərkəzindədir.

Yerli ekspertlər hesab edirlər ki, Alyansın yekun sənədində Azərbaycanın ərazi bütövlüyünə dəstəyin ifadə olunması rəsmi Bakının düzgün xarici siyasətinin nəticəsidir.

Xatırladaq ki, bəyannamənin 30-cu maddəsində Alyansın tərəfdaşlıq etdiyi ölkələrin kənar təzyiqlərdən asılı olmadan müstəqil seçim, sərbəst xarici siyasət və müdafiə hüquqlarını dəstəkləməyə davam edəcəyi bildirilir.

AzərTAc

Serj Sarkisyan öz xalqını ATƏT-in Minsk qrupu formatı arxasında gizlənməyə çağırır

NATO-nun Uels sammitində növbəti şapalaq alan Ermənistan prezidenti Serj Sarkisyan Böyük Britaniyadan qayıdandan dərhal sonra lideri olduğu hakim Respublika partiyasının fövqəladə iclasını çağırıb.

Ermənistan KİV-lərinin etiraf etdiyi kimi, bu iclasda Serj Sarkisyan Azərbaycanın diplomatik uğurlarını təsdiqləyib və tərəfdarlarını beynəlxalq əlaqələri genişləndirməyə, dünya miqyasında öz təbliğatını gücləndirən Azərbaycana qarşı mübarizə aparmaq üçün bu əlaqələrdən istifadə etməyə çağırıb.

Serj Sarkisyan NATO-nun sammitlərində, habelə Avropa Şurasının Parlament Assambleyasında Qarabağ məsələsinin müzakirəsini nəzərdə tutaraq belə bir etiraf edib: "Əslində demək lazımdır ki, bəzi hallarda Azərbaycan buna nail olur". O qeyd edib ki, Ermənistan tərəfi Qarabağ münaqişəsinin nizama salınması məsələsini ATƏT-in Minsk qrupu formatında saxlamalı və rəsmi Bakının bu məsələni həmin formatdan başqa müstəvilərə keçirməyə cəhd göstərdiyini nəzərə alaraq "həqiqəti" (maraqlıdır, hansı həqiqəti?) beynəlxalq birliyə çatdırmağı bacarmalıdır.

Növbəti uğursuzluğu barədə partiya üzvləri qarşısında hesabat verən Serj Sarkisyanın tələsli çıxışından belə nəticə çıxarmaq olar ki, Azərbaycan tərəfinin vəzifəsi Qarabağ məsələsinin müzakirə meydanını fəaliyyətsizliyinə və səmərəsizliyinə görə ləğv edilməsə də, ən azından ciddi tənqid edilməli olan Minsk qrupu formatı hüdudlarından kənarda maksimum genişləndirməkdir. Çünki bu gün Minsk qrupu formatı Qarabağ məsələsini örtbasdır etmək və status-kvonun dəyişdirilməsi istiqamətində heç bir irəliləyişə imkan verməmək məqsədilə Yerevan üçün əlverişli daldalanacaqdır. Məhz buna görə NATO-nun Uels bəyannaməsinin qəbul olunması ərəfəsində Serj Sarkisyan Alyansa üzv ölkələrə "Minsk qrupu ritorikası"ndan istifadə etmək üçün yalvarırdı. Amma alınmadı. Serj Sarkisyan, yumşaq desək, qulaqardına vuruldu və Azərbaycanın, Ukraynanın, Gürcüstanın, Moldovanın ərazi bütövlüyü müdafiə edildi.

Geri qayıdan kimi onun təcili müşavirə keçirməsinin də səbəbi budur.

AzərTAc

Ön xətdən reportaj

Azərbaycan əsgəri qələbə əzmindədir

"Ermənilər özləri etiraf edirlər ki, xarici qüvvələrə güvənirlər. Amma biz öz xalqımıza, öz gücümüzə güvənirik. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik və etməliyik".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Hər tərəfdə sakitlik hökm sürən bir yay səhəri idi. Növbədə olan əsgərlər xidmətlərini öz qaydasında - nizamnamələrin tələblərinə uyğun olaraq aparırdılar. Budur, onlardan biri nizami addımlarla yaxınlaşıb məni qarşılayır və növbətçiyə məlumat verir. Bir az keçmiş növbətçi özü nəzarət-buraxılış məntəqəsinə yaxınlaşaraq hərbi salam verir, görüşürük. Sənədlərimə diqqətlə baxıb hər şeyin qaydasında olduğunu öyrənəndən sonra hərbi hissə komandirinə məruzə edir.

Çox keçmir ki, polkovnik-leytenant Etibar Əhmədovla görüşüb ön xəttə yola düşürük. Söhbət zamanı öyrənirəm ki, zabit Qarabağ müharibəsinin od-alovundan keçib, qanlı döyüşlərin iştirakçısı olub. Bir hərbçi kimi torpaqlarımızın müdafiəsi üçün əlindən gələn hər şeyi edib.

Uzun yola söhbəti ilə körpü salan cəsur zabit dedi ki, ordumuzun gücü, qüdrəti daim artır. Bu gün zabit və əsgərlərimizin döyüş hazırlığı yüksək səviyyədədir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tez-tez cəbhə bölgəsinə səfər etməsi, yurdumuzun keşiyində dayanan, onu göz bəbəyi kimi qoruyan zabit və əsgərlərlə görüşməsi, onların xidmətini layiqincə qiymətləndirməsi hər bir hərbçinin döyüş ovqatını daha da artırır. Son hadisələr zamanı hərbi hissəmizin şəxsi heyəti atəşkəs rejimini pozaraq torpaqlarımıza hücum çəkməyə cəhd göstərən erməni qəsbkarlarına tutarlı cavab verdi. Qısa müddət ərzində düşmənin atəş nöqtələri susduruldu. Burnu ovulan qəsbkarlar ağır itki verərək geri çəkildilər. Ermənilər hiss etdilər ki, onların qarşısında döyüş hazırlığı yüksək olan, hər an onları məhv etməyə qadir olan qartal kimi vüqarlı, polad kimi əyilməz Azərbaycan əsgəri dayanıb. Bir sözlə, döyüş hazırlığı yüksək olan zabit və əsgərlərimiz son hadisələr zamanı işğalçılara yaxşıca dərs verdilər. Düşmən hiss etdi ki, bu gücün, bu qüdrətin qarşısında dayana bilməz, onun sonu çatıb, ölümə, məhvə məhkumdur. Bu gün Azərbaycan əsgəri qələbəyə köklənib, özünü güclü, məğrur və yenilməz hiss edir. Torpaqlarımızı erməni işğalçılarından azad etmək arzusu ilə yaşayır.

Cəbhə bölgəsinə yaxın ərazilərdə yaşayan insanlar hərbçilərə güvənib bərəkətli torpaqlarda əkin-biçinlə məşğul olurlar. Onlar əmindirlər ki, ordumuz torpaqlarımızın keşiyində ayıq-sayıq dayanıb. Bağ-bostanlarda məhsul yığımı gedir, zəhmətkeş kəndlilər əllərini torpaqdan çəkmir, ondan səmərəli istifadə etməyə çalışırlar.

Nəhayət, yaşayış məntəqələri bizdən xeyli arxada qalır. Ön xətdə yurdumuzu qoruyan şəxsi heyətin yanına gəlib çatırıq. Hündür torpaq topasının yanına çatanda zabit Etibar Əhmədov sürücüyə rahat yoldan çıxıb sol tərəfə dönməyi tapşırır. Bayaqdan yol gəlib "yorulan" avtomobil rahat nəfəs alır. Bu nöqtədən sonra yolumuza piyada davam etməli oluruq. Neçə vaxtdan bəri yağışlar yağmadığına, quraqlıq olduğuna görə burada yaşıllıqlar da seyrəlib.

Ayaqlarımızın altında qalan torpaq kübrə kimi xırıldayıb ovulur. Dərin səngərin içi ilə xeyli irəli gedib istehkamçıların yanına çatdıq. İstehkamçı əsgərlər ərazini minalardan təmizləyirdilər. Əsgərlərin əllərindəki qurğulardan müxtəlif səslər çıxırdı. Hər hansı bir siqnal eşidən əsgərlər ehtiyatla qazma işləri aparır, yavaş-yavaş ərazini təmizləyirdilər. Hava isinməmiş tapşırığı yerinə yetirməyə çalışırdılar.

Zabit Əhmədov şəxsi heyətə lazımi tapşırıq və göstərişlər verəndən sonra barıt qoxulu səngərlərə tələsdik. Bizi burada zabitlərdən Hafiz Ağayev və Ramil Əhmədov qarşıladı. Budur, barıt qoxuyan dərin səngərlər. Ətrafda sakitlik hökm sürür. Burnu ovulan düşmən gücdən, qüvvətdən düşüb, yenidən atəşkəs rejimini pozmağa cürət edə bilmir. Qarşısında dayanan cəsur, igid və məğrur Azərbaycan əsgərindən qorxur. Bilir ki, yenə də burnu ovulacaq.

Müddətdən artıq xidmət edən hərbi qulluqçu çavuş Vasif Qəmbərov ötən müddət ərzində heç bir hadisə baş vermədiyini bildirdi. Səngərdə dayanıb erməni işğalçılarının mövqelərini nəzarətdə saxlayan əsgərlərin üz-gözündən qəhrəmanlıq və igidlik yağır. Hiss edirsən ki, onlar hər an düşmən üstünə atılıb rəşadət və hünər göstərməyə hazırdırlar. Əsgərlərdən birinə yaxınlaşıb tanış oluram. Tovuz rayonundan ordu sıralarına çağırılmış əsgər Şamo İsayev artıq on dörd aydan çoxdur ki, hərbi xidmətdədir.

- Vətənə xidmət etmək hər birimizin borcudur, - dedi əsgər. - Qürur duyuram ki, bu müqəddəs borcu barıt qoxulu səngərlərdə yerinə yetirirəm. Daim düşmən mövqelərində müşahidə aparıram. Orda hər hansı bir dəyişiklik müşahidə olunarsa, bu barədə müvafiq yerlərə operativ məlumat çatdırıram.

Bir anlıq mən də müşahidə qurğusundan qarşı tərəfə baxıram. Erməni qəsbkarları işğal etdikləri kəndlərin ərazilərini yandırıb, evləri yerləyeksan ediblər. Hər tərəfdə işğalçıların qanlı izləri görünür. Düşmənə olan nifrətim daha da artır.

Başqa mövqedə dayanıb müşahidə aparan əsgər Seymur Əlyarovla söhbət edərkən öyrəndim ki, o hərbi xidmətə Xaçmaz rayonundan çağırılıb. On bir aydır ki, Seymur içdiyi hərbi anda sadiq qalaraq torpaqlarımızı göz bəbəyi kimi qoruyur. O deyir ki, ordu kişilik məktəbidir. Çalışıram ki, bu məktəbin sınağından uğurla keçim, valideynlərimin, doğmalarımın yanına alnıaçıq, başıuca qayıdım. Bu gün müxtəlif silahlardan bacarıqla istifadə edir, hədəfləri dəqiq vururam. Öyrəndiklərimə görə təcrübəli zabitlərə minnətdaram. Fəxr edirəm ki, bu gün Vətənin keşiyindəyəm. Xidmətdə olduğum bu günlər ömür kitabımın səhifələrinə böyük hərflərlə yazılacaq. Hələ xidmətimin xeyli hissəsi qarşıdadır. Çalışacağam ki, silahların sirlərini dərindən öyrənim, xidmətdə daha böyük uğurlar qazanım.

Torpaqlarımızın keşiyində dayanan əsgərlərdən Mehman Qəhrəmanov, Rəşad Rzayev, Vüqar Mikayılov, Süleyman Süleymanov, Ziya Abıyev, Əmrah Hacıyev, Həmid Heydərov, Mais Eynəliyev və başqaları ilə həmsöhbət oldum. Onların hər sözündən, söhbətindən də vətənpərvərlik ruhu hiss edilirdi.

Əsgərlərlə söhbətlərdən ürəyim dağa döndü. Bir daha əmin oldum ki, Vətən qarşısında məsuliyyətini dərindən hiss edən gənclərimiz yurdumuzun keşiyində ayıq-sayıq dayanırlar. Onlar torpaqlarımızın hər addımı uğrunda döyüşə hazırdırlar.

Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu",
fotolar müəllifindir

Vətənə sipər oğullar

Avqust ayının ilk günlərindən cəbhədə yaranan gərginlik davam etməkdədir. Ordumuzun mərd, cəsur döyüşçüləri atəşkəsi pozan düşmənə qarşı hər dəfə layiqli cavab verirlər. Cəbhədə atəşkəs əldə olunan vaxtdan ilk dəfə idi ki, bu cür gərginlik yaranmışdı. İnsanlar müharibənin yeni mərhələsinin başlandığını düşünürdülər.

Təmas xəttinin bütün istiqamətlərində ara verməyən atışmalar itkisiz də ötüşmədi. Müdafiə naziri general-polkovnik Zakir Həsənov başda olmaqla nazirliyin rəhbər heyəti cəbhənin gərgin nöqtələrində oldu. Ordumuzun, əsgərlərimizin gücünü görən düşmən təlaşa düşdü. Dərhal beynəlxalq təşkilatlara və öz havadarlarına üz tutdu. Onlara yalvarıb-yaxardılar ki, Azərbaycan Ordusunun qarşısında tab gətirə bilmirik, atəşkəsin yenidən təmin edilməsinə kömək göstərin.

Ermənilər bununla bir daha sübut etdilər ki, onlar müharibə aparmaq gücündə deyillər və döyüş meydanında Azərbaycan əsgəri ilə bircə gün belə üz-üzə qala bilməzlər. Erməni quldurlarının döyüş qabiliyyətinə yaxşı bələdik. Sonuncu döyüşlər zamanı onların bir daha nəyə qadir olduqları məlum oldu.

Düşmənlə təmas xəttində xidmət edən oğullarımız yüksək döyüş əhval-ruhiyyəsində olduqlarını və Vətənimizin müdafiəsində hər zaman ayıq-sayıq dayandıqlarını düşmənə verdikləri cavabla bir daha təsdiqlədilər. "N" hərbi hissəsində zabit V.Xanıyevin komandiri olduğu bölmədə əsgərlər hər zaman düşmənə layiqli cavabı ilə seçiliblər. Bu gün də belədir. Döyüşçülərlə söhbətim xoş ovqatda keçdi. Belə ki, Vətən oğullarının gecə-gündüz demədən postlarda döyüş növbətçiliyini aparması heç də asan deyil. Bunun üçün hər bir əsgərdə ilk növbədə vətənpərvərlik ruhu olmalıdır. Vətənə, torpağa, elə bağlı olan mərd oğullarımız düşməni bir an belə nəzarətsiz qoymurlar.

Müdafiə nazirinin tez-tez cəbhə bölgəsinə səfərləri döyüşçülərdə məsuliyyət hissini daha da artırıb. Səngərdə, əsgərlə birbaşa xidmət yerində görüşən ordu rəhbərliyi onun gündəlik həyat şəraiti ilə yaxından tanış olur, qayğı və ehtiyaclarını əsgərin dilindən eşitmək istəyir. Postda döyüş növbəsində dayanan əsgərə verilən ən böyük qiymət də elə bu deyilmi? Belə olan halda əsgər də özünü tənha hiss etmir. Müdafiə naziri general-polkovnik Zakir Həsənov hər dəfə əsgərlərlə görüşə gələndə xidmətdə fərqlənənləri hədiyyələrlə təltif edir. Onların əlini sıxır və sinələrinə Azərbaycan Respublikasının Prezidenti adından Vətənimizin müxtəlif medallarını taxır. Qol saatı kimi qiymətli hədiyyələri ordu rəhbərliyindən alan döyüşçülərimiz xidmətə daha ciddi, daha məsuliyyətlə yanaşmağı özlərinə həm də mənəvi borc hesab edirlər.

Cəbhənin ayrı-ayrı istiqamətlərində yenə atəş səsləri eşidilir. Lakin ordumuzun bölmələri düşmənə hər bir nöqtədən layiqli cavab verir. Yaxşı bilirik ki, düşmən ara-sıra güllə atmaqdan başqa heç nə bacara bilməz. Çünki yaxşı bilir ki, layiq olduğu cavabı tezliklə alacaq. Ordumuzun güclü olması ümid verir ki, erməni işğalı altında olan yurd yerlərimizi tezliklə azad edə biləcəyik. Əsgərlərimizdə olan yüksək döyüş əhvalı da elə bunu deməyə əsas verir.

Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu",
foto
C.CEYHUNUNDUR

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Sentyabrın 8-dən 12-dək Neapol şəhərində (İtaliya) peşəkar çavuş kadrlarının hazırlığı mövzusunda seminar, 19-dək Tbilisi şəhərində (Gürcüstan) daha geniş təhlükəsizlik mühitində müdafiənin idarə olunması kursu, sentyabrın 11-dən 28-dək isə Lvov şəhərində (Ukrayna) Rapid Trident-2014 komanda-qərargah təlimi keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

8 sentyabr 2014-cü il.

Erməni silahlı bölmələri dünən və bu gecə Ağdam rayonunun Novruzlu, Cəvahirli, Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

9 sentyabr 2014-cü il.

Erməni silahlı bölmələri dünən və bu gecə Ağdam rayonunun Şuraabad, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında və Füzuli rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

Vətənpərvərlik

"Ata nəsihəti faydasız olmaz"

Böyük Nizaminin kəlamıdı. Bu kəlam bəşəri kəlamdı və xalq kimi, millət kimi formalaşan, formalaşmaq istəyən xalqlar, millətlər də onu yazılmamış əxlaq kodeksi bilir. Xalqımızın mənəvi zənginliyi sərhədsizdi, Nizaminin kəlamları kimi. Sərhədsiz söz işığımız neçə əsrlərdi dünyanı böyük səxavətlə nurlandırır. Nizami bəşəri şairdi, bəşəriyyətin şairidi.

Oğullar böyüyür, ata arzusunun işığına dönür. Bu işıq ata yurdu ilə, ata yurdu el-obayla, el-oba Vətənlə ruhən sıx bağlıdır. Ona görə də milli-xəlqi ruhun işığı daha parlaqdır. Bu parlaqlığın qarantı oğullardı (oğul termini təkcə cinsi mənsubiyyət bildirmir, oğul kəlməsinin xarakter çaları da var. Oğul ifadəsi bəzən qeyrətin ölçü vahidi kimi də işlədilir və bu, zərrəcə günah deyil)...

Oğullar böyüyür, ailə miqyasını keçib Vətənin oğlu olur. Onların Vətən borcunu yerinə yetirmək üçün hərbi xidmətə yollanması bunun başlanğıcıdır; ata ürəyi dağa dönür. Bu, ata üçün qürur məqamıdır. Oğlunu hərbi mundirdə, hərbi mundirlilərin sırasında görən ata da, o atanın oğlu da əsl vətəndaş olmasıyla qürur duyur, təsəlli tapır. Və belə təsəllilərin bənzəri olmur. Bu təsəlli yaşanılmış illərin şükranlığıdı. Yaşanılacaq illərin daha böyük könül xoşluğu gətirəcəyinə bir əlçim inamdı. Bu inamda həm də yaşatmaq qüdrəti var...

Ata nəsihəti oğul üçün ayrıca dərsdi; təyin olunmayan, keçilməsi nəzarətə götürülmədən, atanın istəyiylə reallaşan, oğlunu yaxşılar sırasında görmək məqsədinin nəticəsi olan dərs. Tədris olunan fənnlərdən daha vacib olan dərs...

H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində kursantlardan biri niyəsə təhsilini davam etdirmək istəmirdi. Komandirlərin, zabitlərin məsləhətləri səmərə vermirdi. Onda kursantın valideynlərini məktəbə dəvət elədilər. Atası oğlu ilə təklikdə söhbət eləmək istədiyini bildirdi...

Ata nəsihəti nəticəsiz qalmadı. Kursant təhsilini davam etdirəcəyini bildirdi. Bu, mənim də marağıma səbəb oldu. Ata ilə oğulun beş-on dəqiqəlik söhbətinin hökmünü gördüm. Ata oğlunu məcbur eləməmişdi, başa salmışdı, məsləhət (nəsihət) vermişdi. İllərin o üzündə qalan anların xatirələri kursantı səhv bir qərardan daşındırmışdı. Ata nəsihətindən sonra...

Tural Hüseynov bakalavr təhsili alıb. Magistraturada oxuyur. Bu günlərdə o da hərbi and içib, hərbi dəniz qüvvələrində xidmət edir. Atası ehtiyatda olan polkovnik Xudat Hüseynov oğluna andiçmə günündə də nəsihət verməyə macal tapdı. Ata oğluna nə deyirdi? Güman ki, nümunəvi xidmət etməyi, komandirlərin, zabitlərin əmr və tapşırıqlarını vaxtında yerinə yetirməyi, içdiyi hərbi anda sadiq qalmağı. Bir də deyərdi ki, vaxtaşırı məktub yaz...

...Ata nəsihətində həmişə Dədə Qorqudluq hiss olunur; Dədə Qorqud öyüdü zamanında oğuzların davranış kodeksi olub. Dədə Qorqud nə deyirdi? - "Torpağı qorumadınsa, əkib-becərməyə dəyməz". Atalar nə deyir? - "Oğul, Vətəni qoru"... Ata nəsihəti sıradan bir xatırlatma deyil. Duyumlu oğul bunu Vətənin tapşırığı bilir və ona əməl edir. Bilir ki, atasının "ən sadə, mürəkkəb cümləsinin də mübtədası Vətəndi"...

Yadıma bir beyt düşür və istərdim ki, oğullar bunu da ata nəsihəti hesab eləsinlər:

Oğullar Vətənə oğul olmasa,
Vətən də itirər vətənliyini...

Rəşid FAXRALI,
"Azərbaycan Ordusu"

Ordu və cəmiyyət

"Torpaqlarımızı işğaldan azad etmək üçün əlbir olmalıyıq"

Ümummilli lider Heydər ƏLİYEV:

"Gərək hər kəs ordumuzun möhkəmləndirilməsinə öz payını versin".

Bu dəfəki ezamiyyətim zamanı cəbhə xəttində yerləşən "N" hərbi hissəsinin məsul zabitlərindən biri - polkovnik-leytenant Rasim Manafovla birgə döyüşçülərimizin yanına yola düşəndə, o, yol uzunu xeyirxah bir adam - keçmiş döyüşçü, hazırda Xocavənd rayonu İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışan Eyvaz Hüseynov haqqında geniş söhbət açdı. Zabitin bildirdiyinə görə, elə bir bayram, yaxud əlamətdar gün olmaz ki, Eyvaz müəllim rayon ictimaiyyətinin nümayəndələri ilə ön xətdəki bölmələrə səfər etməsin. "Artıq döyüşçülərimizin əksəriyyəti onu yaxşı tanıyır. Məncə, vacib deyil ki, əsgərə sovqat gətirəsən, əslində bu gün əsgərlərimizin təminatı güclü olduğu üçün onların heç nəyə ehtiyacı yoxdur. Amma elə bilirəm ki, bir bayram günü səngərdə döyüş növbəsində dayanan əsgərin "qapısı"nı döymək əsl xeyirxahlıqdır. Çünki mənəvi qayğıya, diqqətə hər birimizin daha çox ehtiyacı var".

Səhərisi gün ön xətdən qayıdan kimi Xocavənd rayon İcra Hakimiyyətinə yola düşdük. Sözün açığı, məni maraqlandıran mövzulardan biri də yurd-yuvasından zorla didərgin salınmış insanların qayğılarını, istəklərini öyrənmək idi. Eyvaz müəllim növbətçidən iki nəfər hərbçinin gəldiyini eşidəndə bizi ən yaxın, doğma bildiyi adamlar kimi qarşıladı. Hal-əhval tutdu, ön xətdəki vəziyyəti, əsgərlərimizi soruşdu. Doğrusu, elə ilk andan məndə müsahibimə bir doğmalıq yarandı. Bu bəlkə də səbəbsiz deyildi, axı yuxarıda qeyd etdiyim kimi, Eyvaz müəllim doğma yurdun müdafiəsində iştirak etmiş könüllü döyüşçülərdən olub, bizim kimi neçə illər hərbi forma geyinib. Hələ zabit Manafovdan öyrənmişdim ki, bu ailəni hamı döyüşçülər ailəsi kimi daha yaxşı tanıyır, ailədə üç qardaş döyüş yolu keçib və onlardan biri də Azərbaycanın əfsanəvi döyüşçüsü kimi tanıdığımız İbad Hüseynovdur.

- Ev-eşiklərini itirmiş insanlarımız kimi, xocavəndlilər də bu gün yurd həsrəti ilə yaşayır, - deyə icra başçısı söhbətimizdə bildirir. - Əlbəttə, dövlətimizin rəhbərliyi bizim hər birimizə diqqət və qayğısını əsirgəmir. Hazırda sakinlərimiz yeni salınmış və bütün infrastruktura malik olan 4 qəsəbədə məskunlaşıb. Bu yaxınlarda isə 320 mənzildən ibarət yeni qəsəbə istifadəyə veriləcək. Qeyd etmək istərdim ki, hər bir qəsəbədə insanların yüksək səviyyədə yaşayışı təmin edilib. Qaz, işıq, su sarıdan heç bir problem yoxdur, yollar abadlaşdırılıb, yeni müasir məktəblər və uşaq bağçaları tikilərək sakinlərimizin istifadəsinə verilib. Amma bütün bu şəraitə baxmayaraq hər bir xocavəndli doğma ata-baba ocağının həsrətini çəkir. Biz ümid edirik ki, hərbi qüdrətinə görə regionumuzda lider olan Azərbaycan Ordusu qətiyyətli Ali Baş Komandanımızın rəhbərliyi ilə işğalda qalan torpaqlarımızı tezliklə azad edəcəkdir.

Eyvaz müəllim söhbətini avqustun əvvəllərində düşmənlə təmas xəttində baş verən hadisələrə yönəltdi və qeyd etdi ki, ordumuzun son döyüş uğurları hər birimizdə qürur yaşatdı.

- Ermənilərin hücum cəhdinin dəf edilməsində əsgərlərimizin göstərdikləri hünər və şücaət, sözün həqiqi mənasında, bizdə böyük qələbəmizə dərin inam hissləri doğurdu, - deyir müsahibimiz. - Həmin günlərdə yüzlərlə xocavəndli döyüşlərə yola düşmək üçün müraciət etmişdi. Sonra xəbər tutduq ki, Azərbaycanın bütün bölgələrindən, həmçinin xaricdə olan soydaşlarımızdan da Vətən uğrunda savaşa qalxmaq istəklərini ifadə edənlər çox olub. Bu nəyin göstəricisidir? İlk növbədə xalqın ordu ilə birliyinin və Ali Baş Komandana, ordumuza olan güclü inamın təzahürüdür. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin bu hadisələrin ardınca cəbhə xəttinə gəlməsi, burada ordu rəhbərliyi ilə operativ müşavirə keçirməsi və döyüşlərdə fərqlənənlərə yüksək dövlət mükafatlarını təqdim etməsi ordumuzda qələbə ruhunu daha da artırdı. Ümumiyyətlə, istər dövlət başçımızın, istərsə də Müdafiə Nazirliyi rəhbərliyinin ön xətdə bilavasitə əsgərlərlə görüşməsi, onların qayğıları ilə dərindən maraqlanması, ən əsası yüksək dövlət məmurunun əsgərlə çay süfrəsinə əyləşib döyüşçünün problemlərini onun öz dilindən eşitməsi son vaxtlar orduda böyük əhval-ruhiyyə doğurub. Tez-tez eşidirəm ki, hörmətli Müdafiə naziri cənab Zakir Həsənov cəbhənin müxtəlif istiqamətlərinə səfər edir, xidmətdə fərqlənən əsgər və zabitləri mükafatlandırır. Siz təsəvvür edin ki, nazirin səngərdə döyüş növbəsi keçirən əsgərə qol saatı hədiyyə etməsi nə deməkdir? Bu, əsgər üçün böyük diqqətdir və onun həyatında ən unudulmaz, qiymətli hadisəyə çevrilir. Elə bilirəm ki, belə bir əsgər son nəfəsinədək döyüşməyi özünə şərəf biləcəkdir. Böyük öndərimiz Heydər Əliyev həmişə tövsiyə edərdi ki, xalqın öz ordusuna, öz əsgərinə diqqət və qayğısı ordunu möhkəmləndirən əsas vətənpərvərlik amillərindən biridir.

Həmsöhbətimə görə, son aylar orduda yaranmış dəyərli bir ənənə - şəhid olan döyüşçülərimizin hörmət və ehtiramla dəfn edilməsi, Müdafiə Nazirliyi nümayəndələrinin bu tədbirlərdə yaxından iştirakı cəmiyyətimizdə rəğbətlə qarşılanır.

- Bizim rayonumuzdan olan bir döyüşçü - əsgər Sənan Quliyev də şəhid olmuşdu, - deyə Eyvaz müəllim bildirir. - Onun dəfnində böyük izdiham yaşandı. Bütün rayon ictimaiyyəti şəhidi son

mənzilə yola salırdı. Müdafiə Nazirliyinin məsul nümayəndəsi polkovnik Abdulla Qurbani də mərasimdə iştirak edirdi. Onun çıxışı hamıda dərin təəssürat yaratmışdı. Səhəri gün şəhidin babası, Qarabağ müharibəsi veteranı Əlqəmə kişi yanıma gəlmişdi. Əvvəlkindən də qürurlu görünürdü. O deyirdi ki, Eyvaz müəllim, nəvəmlə fəxr edirəm, o, fədakarlığı və qəhrəmanlığı ilə şəhidlik zirvəsinə yüksəlib, nəslimizə başucalığı gətirib. Bu gün müharibə başlasa, mən də nəvəm kimi hünər göstərməyə hazıram.

Söhbətimizin bir məqamında son aylar orduda aparılan islahatlar, əsgərlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün atılan addımlar, bəzi məişət işlərinə təcrübəli mülki işçilərin cəlb edilməsi, həmçinin hərbi xidmətini şərəflə başa vurmuş gənclərin müddətdən artıq hərbi qulluğa cəlb edilməsi məsələlərindən danışıldı. Sərhəd rayonunun icra başçısı bu amillərə önəm verildiyinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə öz minnətdarlığını bildirdi. "Bu gün eşidirəm ki, hərbi xidmətdən qayıtmış yüzlərlə gənc vətəndaşımız yenidən orduya qayıdır, müxtəlif hərbi vəzifələrdə çalışır. Bundan əlavə orduda bəzi məişət işlərinə mülki adamları cəlb edirlər. Artıq bölgələrimizdə nə qədər adam orduda işlə təmin olunub. İnandırım ki, mən buna görə çox sevinirəm və xahiş edirəm, Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığımı doğma hərbi qəzetimizdə qeyd edəsiniz. Səmimi fikrimdir, aparılan bu islahatlar son vaxtlar orduya xalqın inamını qat-qat artırıb".

İcra başçısı bir məsələni də diqqətə çatdırdı ki, bu gün cəmiyyətimizdə hərbi vətənpərvərlik tərbiyəsinə, ordumuzda baş verən islahatların təbliğinə ciddi önəm verilməlidir. "Yaxşı olardı ki, özəl televiziya kanalları maraqlı vətənpərvərlik layihələri hazırlamaqla yarış etsinlər. Görək hərbi mövzuda kim yaxşı veriliş hazırlayacaq? Bu gün ölkəmiz müharibə şəraitindədir, hər bir vətəndaşımız qarşıda dayanan mühüm vəzifəyə - torpaqlarımızın işğaldan azad edilməsinə öz töhfəsini verməlidir. Sabahın döyüşçüləri ailədə, cəmiyyətdə yetişir və onları vətənpərvərlik ruhunda tərbiyə etmək əsas vəzifəmizdir. Yaxşı olar ki, hər bir müəllim öz dərsinin bir məqamında şagirdləri ilə vətənpərvərlik söhbətləri aparsın, böyüməkdə olan nəslə Vətənə, dövlətimizə və xalqımıza sevgi aşılasın. Bir sözüm də jurnalistlərədir, gərək hərbi mövzudan söz açan şəxs öz Vətəninin təəssübü ilə yaşasın, düşmənin xeyrinə informasiya yaymaqla məşğul olmasın. Söhbətimi belə tamamlamaq istərdim ki, torpaqlarımızın işğalda olduğu bir vaxtda hər birimiz vətəndaşlıq mövqeyimizi ortalığa çıxarmalı və düşünməliyik ki, bu ali məqsədə çatmaq üçün biz nə etməliyik?"

Mayor
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu"

Tibb xidməti

Sağlamlıq bəxş edən əllər

Cəbhə bölgəsi mərkəzdən baxanda gözdən iraq kimi görünür. Bəzən düşünürsən ki, şəhərdə olan şərait və imkanlar görəsən, bu yerlərdə varmı? Bəzən məni də bu suallar düşündürür. Gərgin vəziyyətin davam etdiyi bu bölgələrdə vacib olan əsas məsələlərdən biri də sağlam həyatın mövcudluğudur. Elə bu məqsədlə də "N" hərbi hissəsində hərbi tibb məntəqəsinin fəaliyyəti ilə tanış olduq. Burada çalışan həkimlərlə görüşdük. Bu məqamda bir məsələni qeyd etmək yerinə düşərdi.

Hərbi hissələrdə çalışan həkimlər mərkəzdə çalışan həkimlərdən fərqlənirlər. Onlar burada həm Vətənə bir hərbçi kimi xidmət edir, həm də əsgərlərimizin sağlamlıqları keşiyində dayanırlar. Hazırda görüşdüyümüz həkimlər həyatlarını Azərbaycan Ordusuna, Azərbaycan əsgərinin sağlamlığına həsr etmiş insanlardır. Onlar hərtərəfli biliyə və savada sahibdirlər. Buradakı həkimlərin yalnız bir məqsədi var: Vətənin əmanətini qorumaq üçün əllərindən gələni etmək...

Həkimlərimizlə bir yerdəyik. Bizi ilk qarşılayan tibbi xidməti mayoru Əhməd Əliyevdir. Əvvəlcə, zabitlə ümumi söhbət edirik. Hal-əhval tuturuq. Sonra tibb otaqlarını gəzərək səmimi söhbətə davam edirik.

Mayor Əhməd Əliyev. Azərbaycan Dövlət Tibb Universitetinin müalicə-profilaktika fakültəsini bitirib. 2000-ci ilin noyabrından hərbi xidmətə başlayıb. Düz 14 il cəbhənin təmas xəttində xidmət edib. Füzuli, Beyləqan, Tərtər və başqa bölgələrdə də olub. Əslində, biz tibbi xidmətdən danışırıq, amma o, bütün savadını, gücünü torpaqlarımız azad olunana kimi Vətənin mərd oğullarının sağlamlığı üçün istifadə edəcəyini bildirir. Ürəyi dolu olan həkimimiz hisslərini bizimlə bölüşür. Deyir ki, onun əlləri yalnız insan həyatını geri qaytarmaq üçün yararlı deyil, lazım gələrsə, bu əllər erməni faşistlərini düşünmədən məhv etməyə də hazırdır.

Ə.Əliyev tibb xidməti üçün yaradılan şəraitin üstünlüklərindən danışır:

- Paytaxtdan yüz kilometrlərlə uzaq məsafədə yerləşən cəbhə bölgəsində belə bir şəraitə malik olan tibbi xidmətin fəaliyyəti vacib və lazımlıdır. Dövlətimizin qayğısı və diqqəti nəticəsində hazırda xəstələrimizə və yaralılarımıza ilkin tibbi yardımı göstərə bilirik. Kifayət qədər şəxsi heyəti olan hərbi hissənin bütün əsgər, zabit və gizirlərinin müayinəsi və müalicəsi burada aparılır.

Bizə maraqlı gələn bir məsələ isə, buradakı iş fəaliyyəti və müayinə prosesləridir. Həkim bu barədə də geniş məlumat verir:

- Hərbi hissənin tabeliyində olan taborların, bölmələrin hər birində həkim və feldşerlərimiz çalışır. Hər hansı şikayəti olan hərbi qulluqçular taborun və ya bölmənin həkimlərinə müraciət edirlər. Onlar ilkin müayinə edildikdən sonra tibb məntəqəsinə təxliyyə olunur. Aiddiyyatı üzrə xəstəni müayinə edirik. Müalicəsi burda mümkün olanları sağaldıb, xidmət yerlərinə göndəririk. Nisbətən ağır xəstələri isə ixtisaslı müayinə və müalicə üçün əlahiddə tibb taboruna təxliyyə edirik. Bununla yanaşı, infeksion xəstəliklərin qarşısını almaq üçün hərbi hissədə şəxsi heyətə peyvəndlər vurulur, profilaktik tədbirlər aparılır.

Stomatoloji kabinetdə isə tibb xidməti leytenantı Babək Həsənli ilə görüşürük.

Kifayət qədər bilik və təcrübəyə malik olan gənc stomatoloq Samara Tibb Universitetində 6 il təhsil alıb. Sonra Vətənə qayıdıb və

ehtiyat zabit hazırlığı kursunu bitirərək ordu sıralarında xidmətə yollanıb.

İnsan bunu düşünməyə bilmir ki, xarici ölkədə təhsil aldıqdan sonra, paytaxtın nüfuzlu klinikalarında işləməkdənsə, gəlib ucqar nöqtədə, gərgin vəziyyətdə çalışmağı seçəsən. Bu fikirlərimizi Babək Həsənli ilə də bölüşürük.

- Universiteti dövlət hesabına oxumuşam. Kifayət qədər əziyyətimi çəkən Vətənimə, böyüyüb boya-başa çatdığım torpağıma öz borcumu başqa necə ödəyə bilərəm ki!? Mənim vicdanım götürməz ki, torpaqlarımız işğal altında olsun və mən hansısa şəhər klinikasında rahat çalışım. Biz müharibə şəraitində yaşayırıq və mənim borcum əsgərlərimizin yanında olmaqdır. Ona görə də burdayam.

Stomatoloq əsgərlərimizin diş problemlərindən danışır. Onlara göstərilən ilk tibbi müayinə barədə məlumat verir.

- Burada diş problemləri ilə bağlı müraciət edən əsgərlərimizə dişlərin çəkilməsi, plombun, körpüvari protezlərin qoyulması kimi tibbi xidmətlər göstəririk. Bu əməliyyatları həyata keçirmək üçün də imkanlarımız genişdir. Kabinetdə sterilizator, avtoklav kimi stomatoloji cihazlarımız var.

Müayinə otağında tibb məntəqəsinin feldşeri gizir Ramil Səmədovla qarşılaşırıq. O, səhhətində problemi olan əsgəri müayinə edirdi. Onu işindən ayırmırıq. Elə müayinə zamanı söhbətə qoşuluruq.

Gizir Ramil Səmədov 2001-2003-cü illərdə müddətli həqiqi hərbi xidmətini cəbhə bölgəsindəki hərbi hissələrdən birində başa vurub. 2006-cı ildən gizir kimi xidmət edir. Artıq 8 ildir ki, burada xidmətini davam etdirir.

- Burada əsas vəzifəm xəstəyə ilkin yardım göstərməkdir, - deyir gizir. - Döyüşçülərə xidmət etməkdən qürur duyuram. Çünki səhhətində problem yaranan və düşmən gülləsindən yaralanan əsgərlərimizə yardım göstərirəm. Mənim üçün xəstənin sağaldığını, yaralının həyata qayıtdığını görməkdən böyük sevinc yoxdur. Bir insanı həyata qaytarmağın necə gözəl hiss olduğunu təsəvvür etmək çətindir. Gərək bunu yaşayasan...

Həkimlik sənəti kimi şərəfli, çətin və məsuliyyətli bir peşə tanımırıq. Burada fəaliyyət göstərən həkimlər isə bu məsuliyyəti ikiqat üzərlərinə götürüblər. Söhbətimiz zamanı xəstələrlə insani münasibət və qayğıkeşliklə davranan həkimlərimizin səmimiliyindən razı qaldıq. Buradakı xoş vəziyyəti gözlərimizlə gördük.

Tibbi xidməti rəisi Əhməd Əliyevin bizimlə vidalaşanda dediyi "Həkimin qəlbi əlləri kimi qızıl olmalıdır" sözlərini isə uzun müddət xatırlayacağıq...

Leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"

Xəbərlər:

hadisələr, faktlar

Türkiyədə yeni Konstitusiya qəbul olunacaq

Türkiyənin yeni baş naziri Əhməd Davudoğlu "TRT haber" kanalına müsahibəsində bildirib ki, Ədalət və İnkişaf Partiyası hakimiyyəti dövründə ölkədə yeni Konstitusiya qəbul olunmasını özünün mühüm hədəflərindən biri sayır. 2015-ci ilin sonlarından 2019-cu ilin yazınadək ölkədə heç bir seçki nəzərdə tutulmadığı üçün yeni Konstitusiyanın qəbulu bu dövrə təsadüf edə bilər.

Xatırladaq ki, 1921-ci ildə Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün rəhbərliyi ilə hazırlanaraq "Teşkilat - ı esasiye kanunu" adı ilə qəbul olunmuş ilk Konstitusiya sonrakı dövrlərdə ölkədəki ictimai-siyasi proseslərə uyğun olaraq bir neçə dəfə dəyişdirilib.

Türkiyə qanunlarına görə, yeni Konstitusiya referendum yolu ilə qəbul edilə bilər.

Belarusun paytaxtında Donbasda atəşkəs haqqında protokol imzalanıb

Ukraynanın şərqində vəziyyətin nizama salınması məsələsi ilə əlaqədar Minskdə keçirilən görüşün iştirakçıları atəşkəs haqqında sənəd imzalayıblar. Bu barədə jurnalistlərə ATƏT-in fəaliyyətdə olan sədrinin Ukraynada vəziyyətin nizama salınması məsələləri üzrə rəsmi nümayəndəsi Adelheyd Talyavini məlumat verib.

Danışıqlarda iştirak edən tərəflərin nümayəndələri bildiriblər ki, bir neçə bənddən ibarət protokol imzalanıb. Həmin bəndlərdən biri Ukraynanın şərqində atəşin dərhal dayandırılması haqqında şərtdir.

Xatırladırıq ki, Minskdə "Prezident-otel"in binasında Ukraynanın şərqində vəziyyətin nizama salınması üzrə üçtərəfli əlaqə qrupunun (Ukrayna-ATƏT-Rusiya) növbəti iclası keçirilib. Görüşdə Ukrayna tərəfini keçmiş prezident Leonid Kuçma, Rusiya Federasiyasını - Rusiyanın Kiyevdəki səfiri Mixail Zurabov təmsil ediblər.

İranın dondurulmuş maliyyə vəsaiti geri qaytarılır

İranın beynəlxalq banklarda dondurulmuş maliyyə vəsaitinin 1 milyard dolları sentyabrın 5-də Yaponiyanın Mərkəzi Bankından İranın Mərkəzi Bankının Əmmandakı şöbəsinə köçürülüb.

Xatırladaq ki, cari ilin iyun ayında Qərb dövlətləri ilə rəsmi Tehranın Cenevrədə apardıqları danışıqların nəticəsində İranın neft satışından əldə etdiyi və nüvə proqramı ilə əlaqədar beynəlxalq banklarda dondurulmuş maliyyə vəsaitlərinin geri qaytarılması haqqında razılıq əldə edilib.

Türkiyədə "F-16" döyüş təyyarəsi qəzaya uğrayıb

Türkiyə Silahlı Qüvvələrinə məxsus "F-16" döyüş təyyarəsi ölkənin Diyarbəkr bölgəsində eniş zamanı qəzaya uğrayıb. Qəzaya səbəb kimi təyyarənin mühərrikində yaranmış nasazlıq nəticəsində yanğının baş verməsi göstərilir.

Rəsmi məlumata görə, pilot təyyarəni vaxtında tərk edib və onun vəziyyəti normaldır.

İslamabadda kütləvi ixtişaşlar baş verib

Pakistanın Baş naziri Nəvaz Şərifin istefasını tələb edən kütlə İslamabadda iğtişaşlar törədib. Hökumət binasının qarşısına toplaşanlar Baş naziri korrupsiya və rüşvətxorluqda təqsirləndirərək onun cinayət məsuliyyətinə cəlb olunmasını tələb edirlər. Müxalifət partiyaları aksiya iştirakçılarını dəstəkləyərək keçid hökumətinin yaradılmasını təklif edirlər.

İslamabadda davam edən aksiyaları dağıtmağa çalışan polis müqavimətlə qarşılaşıb. Kütləvi aksiya iştirakçıları bir polis əməkdaşını ölümcül şəkildə döyüblər. Ümumilikdə iğtişaşlarda 3 nəfər həlak olub, 500 nəfər isə yaralanıb. Yaralananlar arasında ağır vəziyyətdə olanlar da var. Hökumət rəsmiləri sabitliyin pozulmasında müxalifəti ittiham edirlər.

Planetin ən güclü proqramçısı Gennadi Korotkeviç yenə birincidir

AzərTAc BELTA agentliyinə istinadla xəbər verir ki, Qomeldən olan 19 yaşlı Gennadi Korotkeviç planetin ən güclü proqramçılarının reytinqində birinci yerdədir. Bu yay mövsümündə Gennadi virtual məkanı iki dəfə "silkələyib". Avqustun 1-də Berlində keçirilən "Yandeks. Alqoritm-2014" çempionatında qalib gəlib. Seçim mərhələlərində dünyanın 72 ölkəsindən dörd minə yaxın "ağıl dəryası"nın iştirak etdiyi bu çempionatın baş mükafatını qazanmış gənc avqustun ortalarında Los-Ancelesdə keçirilən idman proqramlaşdırması üzrə nüfuzlu beynəlxalq yarışda ("Google Code Jam") iştirak edib.

Bu yarışda iştirak etmək iddiasında olan "koder"lərin sayı 20 minə yaxın idi, lakin intriqa bu dəfə də Qomeldən olan proqramçının xeyrinə başa çatıb - 15 min dollar məbləğində baş mükafat ona qismət olub.

Hazırladı:
Ə.MƏHƏRRƏMOĞLU

Tarix

Mətbuat vasitəsilə erməni terroru

(Əvvəli ötən nömrələrimizdə)

XIX əsrin sonlarında 2000-dək məktəbi olan, sərbəst şəkildə erməni dilində çıxan xeyli miqdarda qəzet-jurnala sahib, milli cəmiyyət, təşkilat və partiyaları olan erməni millətini türklərə, Osmanlı dövlətinə qarşı qoyanlar türk dünyasının düşmənləri idilər. XIX əsrin 60-70-ci illərində Türkiyədə çıxan 24 qəzetdən 9-u erməni dilində idi. Haqlı olaraq erməni alimi E.Gegamyans 1915-ci ildə Bakıda erməni dilində çap etdirdiyi "Ermənilərin azadlıq hərəkatı" ("Hayeri azataqraqan şarjumı") adlı əsərində Türkiyənin milli azlıqlarla, o cümlədən ermənilərlə bağlı öhdəsinə götürdüyü bütün məsələləri həll etdiyini qeyd edir. "Daşnaksütyun", "Hnçak" və digər erməni siyasi təşkilatları bütün bunlarla razılaşmırdı. Onlar Anadolu ermənilərinə müstəqil bir dövlət yaradılmayana qədər mübarizə aparacaqlarını bəyan edirdilər və bu fikirlər, bu ideya o dövrdə çıxan bütün mətbuat orqanlarında ana xətt təşkil edirdi.

I Dünya müharibəsindən öncə 1912-1913-cü illərdə Balkanlarda gedən savaş və bununla bağlı dəyişikliklərin baş verməsi digər ölkə və regionlarda da müəyyən canlanma yaratdı. Balkanlarda da milliyyətçi quldur dəstələr türkləri öldürüb onları öz yeryurdlarından didərgin salmışdı. Bundan ruhlanan erməni milliyyətçi partiyaları Cənubi Qafqazda da erməni dövləti qurmaq planlarını işə salmışdılar, lakin bu bölgə Rusiya ərazisi hesab olunduğundan onlar bu məsələni ehtiyatla gündəmə gətirirdilər. Rusiya öz ərazisində hər hansı milli dövlətin yaranmasına imkan verməzdi. Ermənilərin bunu gündəmə gətirməsi əslində erməni hiyləgərliyi, təzyiq idi. Onlar bu yolla Rusiyanı Osmanlı dövləti tərkibində bir erməni dövləti qurmağa kömək etməsinə təhrik edirdilər. Əsasən erməni-daşnak müəlliflərin çoxluq təşkil elədiyi "Bakinskiy raboçiy" qəzetində 1913-1914-cü illərdə çıxan silsilə yazılarda həmin ideya öz əksini tapmışdı. Ermənilər Rusiyanı şantaj edərək onu satqınlıqda suçlayırdılar. Ermənilər Osmanlının Avropada başının qarışıq olmasından istifadə etmək istəyirdilər. Avropada Osmanlının nəzarətində olan ərazilərində müsəlmanların çoxluq təşkil etməsi həmin istilaçı xristian dövlətlərini narahat edirdi. 1912-ci ildə başlanan Balkan müharibəsi bu "narahatçılığa" son qoydu. Müsəlmanların sayı 27 faiz azaldı. Ermənilər Şərqi Anadoluda "çoxalmağın" bu Balkan üsulunu mənimsəyib sınaqdan çıxarmaq üçün ayrı-ayrı vilayətlərdə fəaliyyətə keçdilər. Balkanlarda baş tutan məsələ nə üçün Anadoluda gerçəkləşməsin? Məşhur tarixçi Castin Makkarti özünün "Kim başlatdı?" adlı məqaləsində yazır ki, "Birinci Dünya müharibəsi başlamazdan əvvəl erməni partizan dəstələri, quldur drujinaları təşkilatlanmağa və təlimlər keçməyə başlamışdı və bunlar "yaxşı silahlanmış və təlim görmüş üsyançı birliklər idi". Onların sayı, görkəmli tarixçiyə görə, 100 minə qədər idi. Silahların çox hissəsini Rusiya verirdi. Osmanlı görəvliləri öz raportlarında təkcə Sivas vilayətində 30 min erməni partizanın olduğu barədə yuxarılara məlumat vermişdilər. Bu durum, erməni quldur dəstələrinin yaratdığı təhlükə həm Osmanlı İmperatorluğunun varlığını, həm də Anadoluda yaşayan müsəlman əhalini çox ciddi şəkildə təhdid edirdi. Erməni tədqiqatçısı və filosofu S.Q.Pirumov (Pirumyan) 1934-cü ildə Tiflisdə Şərqşünaslıq Elmi Assosiasiyası tərəfindən çap etdirdiyi "Daşnaklar xaricdə" adlı kitabında etiraf edir ki, müharibə ərəfəsində "erməni məsələsi"ni yenidən gündəmə gətirən məhz daşnaklar oldular. O zaman erməni millətçiliyi başqalarına zülm etmək xarakteri daşımaqdaydı, erməni şovinist millətçiliyinin təmsilçiləri olan daşnaklar ermənilər qonşu xalqlara qarşı "heyvani bir nifrətlə" zəhərləmişdilər, yanaşı yaşadıqları xalqlarla qaynayıb qarışmağa qoymamışdılar. Müəllif yazırdı ki, Birinci Dünya müharibəsi ərəfəsində imperialist dövlətlərin, xüsusən Rusiyanın köməyi ilə erməni könüllü drujinalarının qurulması çox böyük bir səhv idi, bu səhv erməni xalqına çox baha başa gəldi. "Erməni xalqının üzləşdiyi faciənin günahkarları daşnaklardır". Onlar "erməni məsələsi"ni yenidən gündəmə gətirməklə həm Şərqi Anadoluda, həm də Qafqazda fəlakətlərə, xalqların faciəsinə yol açdılar. Ortaya süni bir məsələ çıxartdılar. Bu, erməni siyasi təşkilatlarının fəaliyyəti nəticəsində yeni çalarlarla ortaya çıxan "erməni məsələsi" idi.

Böyük Sovet Ensiklopediyasının 1926-cı il nəşrində "erməni məsələsi"nə belə bir tərif verilib: "Erməni məsələsi Şərq məsələsi adlandırılan məsələnin bir hissəsidir və ona iki nöqteyi-nəzərdən baxılmalıdır. Zahiri mahiyyət: böyük dövlətlər daha asanlıqla istismar etməkdən ötrü onun mərkəzdənqaçma qüvvələrini gücləndirməyə, beləliklə, ölkəni zəiflətməyə çalışırdılar. Daxili mahiyyət: öz burjuaziyasının rəhbərliyi altında ermənilər milli müqəddəratın müstəqil təyin edilməsi uğrunda elə siyasi-iqtisadi amillər əldə olunması uğrunda mübarizə aparırdılar ki, bu amillərin təsiri altında burjuaziya sərbəst inkişaf edə bilsin".

Ermənilər Türkiyə ərazisində bir erməni dövləti qurmaq üçün erməni əhalisi arasında mətbuat vasitəsilə və şifahi yolla, kilsənin vasitəçiliyi ilə "milli özünüdərkin oyanması", yəni, döyüşkən millətçilik təbliğatı aparırdılar. Bu təbliğat son nəticədə erməni terrorizminin meydana gəlməsinə rəvac verirdi. Bu terrorizm başqa analoji qavramalardan fərqli olaraq təşkilatlanmış terrorizm idi. Ermənilərə aid təşkilatlanmış terrorçu qurumların yaranması "Daşnaksütyun"dan xeyli əvvəl olsa da, ilk döyüşkən millətçi-terrorçu siyasi təşkilat məhz "Daşnaksütyun" - "Erməni İnqilabi Federasiyası" oldu. "Hnçak" "Daşnaksütyun"dan xeyli əvvəl yaransa da, onun da məqsədi türkləri, kürdləri, ümumiyyətlə, bütün müsəlmanları fiziki cəhətdən məhv etmək olsa da, fəaliyyəti pərakəndə idi. "Daşnaksütyun" ona görə daha üstün terror təşkilatı idi ki, onun proqramında və Nizamnaməsində əsas taktika və strategiya siyasi məqsədlərə çatmaq üçün nəinki terroru istisna edir, hətta terroru əsas mübarizə üsulu hesab edirdi. Həm də "Daşnaksütyun" bu taktika və strategiyanı bütün dünyada həyata keçirməyi hədəfləyirdi. "Daşnaksütyun" partiyasının Nizamnaməsində göstərildiyi kimi, onun iki bürosu vardı:

a) Şərq bürosu;
b) Qərb bürosu.

Bu bürolar həm siyasi-diplomatik, həm də hərbi-terrorçuluq fəaliyyəti aparırdılar. Yelizavetpol qubernatoru A.Kaçalov 1907-ci ilin avqustun 7-də öz məktubunda "Daşnaksütyun" partiyasının qurduğu "zinvorlar" (yəni, əsgərlər) ordusu barədə yazırdı: "Daşnaksütyun"un Cənubi Qafqaz sərhədləri içərisindən, əsasən Türkiyədən fərarilik etmiş ermənilərdən və yerli başkəsənlərdən təşkil edilmiş, əllərindən adam öldürmək və zor tətbiq etməkdən başqa bir iş gəlməyən, amma partiya büdcəsindən (ən aşağı rütbəli zinvorlar illik 300 rubl alırlar) yüksək maaş alan yüz min nəfərlik zinvorlar ordusu vardır". Bir terror təşkilatı olaraq "Daşnaksütyun" daşnakçı qrupunu qurarraq sonralar onu "Erməni İnqilabi Ordusu" adlandırmışdı. Bu terror təşkilatı indi də fəaliyyət göstərir, 70-80-ci illərdə türk diplomatlarına qarşı terror hərəkətlərində ASALA ilə birgə fəaliyyətdə olmuşdur. Göründüyü kimi, hələ uydurma "erməni soyqırımı"na, yəni, 1915-ci ilə çox vardı, amma daşnaklar törətdikləri qanlı əməllərə haqq qazandırmaq üçün onu gündəmə gətirirdilər, öz təşkilatlarından birinə belə bir ad da vermişdilər: "Erməni soyqırımı ədalət komandaları". Bu təşkilat da gizli fəaliyyətdədir. O, terrorçu qruplardan fərqli olaraq hədəf kimi yalnız türkləri və kürdləri seçmişdi. Daşnak marksist yönümlü "Hnçak"dan fərqli olaraq onlar kommunistlərsiz bir Ermənistan qurmaq istəyirdilər. Buna görə də hələ 1914-cü ilin payızından başlayaraq Osmanlıya qarşı müharibəyə girəcək ölkələrin yanında yer almaq qərarını vermiş və könüllülər drujinası təşkil etməyə başlamışdılar. Onlar Cənubi Qafqazın quberniyalarında özəklərini yaratmışdılar. Özü də bunu çox böyük hay-küy və enerji ilə edir, həmin dövlətlərin diqqətini cəlb etmək üçün ölkə içində təxribat, terror, iğtişaş və nümayişlərin sayını çoxaldırdılar. Halbuki "Daşnaksütyun" partiyası özünün Ərzurum (oktyabr, 1914) qurultayında Türkiyəyə qarşı qanundankənar hərəkətlərə yol verməyəcəyini açıqlamışdı. Bu, daşnakların taktikası idi.

Rusiyaya bu dönəmdə çoxlu erməni millətçiləri köç etmişdi. Onlar Osmanlı ərazilərində dövlət yaratmağın o qədər də asan olmayacağını hiss etmişdilər. Bu baş tutmasa, erməni dövləti Cənubi Qafqazda yaradılacaqdı. Tək manea isə burada erməni əhalinin az olması idi. Bu səbəbdən daşnaklar Türkiyədə milli münaqişənin kəskinləşməsi tərəfdarı idilər, bu, Osmanlı ərazilərindən ermənilərin kütləvi köçünə səbəb olacaqdı. Daşnak mətbuat orqanları Rusiyanın daha cəlbedici və münasib yer olduğu barədə aktiv təbliğat aparırdılar. Amma Rusiyanın milli azlıqlarla bağlı apardığı siyasət ermənilərə də aid idi və Rusiya öz ərazilərində heç kimə, o cümlədən ermənilərə dövlət yaratmaq imkanı vermək istəmirdi. Bu səbəbdən qanlı hadisələrin Osmanlı ərazilərində genişlənməsində maraqlı idi və bunun üçün yardımlar da edirdi. "Rusiya və Türkiyə arasında məskən salmış ermənilər" çox böyük siyasi əhəmiyyət kəsb edirdi. Rus diplomatları erməni burjuaziyası ilə saziş bağlamağa nail olmuşdular ki, Şərqi Anadolu vilayətlərində islahatlar keçirilməsi tələblərini irəli sürəcəklər və bunu artıq irəli sürmüşdülər.

Gənc türklər 1914-cü ildə islahatlar barədə saziş imzalamağa məcbur olmuşdu. Bu, ermənilər daha aqressiv hərəkətlərə, siyasi-hərbi gedişlər etməyə sövq etdi, müharibə başlanarkən isə onlar açıq şəkildə Rusiyanın tərəfinə keçdilər. Ermənilər fikirləşirdilər ki, müharibə Osmanlı İmperiyasına son qoyacaq və onlar "Böyük Ermənistan" ideyasını həyata keçirəcəklər. Milliyyətçilərin "Hayrenik" qəzeti yazırdı ki, "biz onu hesablamamışdıq ki, müharibə gedə-gedə türklər vaxt tapıb "ermənilər Şərqi Anadoludan köçürəcəklər". Demək, ermənilərin Şərqi Anadoludan köçürülməsi də daşnakların planına uyğun olmuşdu, onlar bu hadisədən sonra Rusiyadan Qafqazda erməni dövlətini yaratmağı tələb edə biləcəkdilər. Dövrün erməni mətbuatı Osmanlı dövlətinin köç və yerdəyişmə qanununu ermənilərin arxasından vurulan zərbə hesab etsə də, bu hadisənin Cənubi Qafqazda bir erməni dövləti yaranmasına şərait yaradacağına ümid edirdilər.

(Ardı var)

Qafar ÇAXMAQLI,
siyasi elmlər üzrə
fəlsəfə doktoru

Qan yaddaşımız

Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!

İdman

Karateçilərimiz "İstanbul Open" turnirində beş medal qazanıblar

Türkiyədə Dünya Karate Federasiyasının (WKF) Premyer Liqa yarışlarından "İstanbul Open"də iştirak edən Azərbaycan idmançıları 5 medal qazanıblar. AzərTAc xəbər verir ki, turnirdə Ayxan Mamayev (84 kq) qızıl, Vüsal Kamallı (gənclər, 76 kq), Roman Heydərov (14-15 yaşlılar, kata) gümüş, Niyazi Əliyev və Rafiz Həsənov (hər ikisi 67 kq) isə bürünc mükafata sahib olublar. R.Həsənov bürünc medal uğrunda komanda yoldaşı Tural Ağalarzadə ilə mübarizə aparıb.

Milli komandamız dünya çempionatına qələbə ilə başlayıb

Çimərlik futbolu üzrə Azərbaycan milli komandası İtaliyanın Jesolo şəhərində keçirilən dünya çempionatının seçmə mərhələsində iştirak edir. Azərbaycan milli komandası çimərlik futbolu üzrə dünya çempionatında ilk oyununu keçirib. Çexiya yığması ilə qarşılaşan futbolçularımız 4:1 hesabı ilə qələbə qazanıb. Əli Hüseynovun dubl etdiyi oyunda hərəyə bir dəfə Asif Zeynalov və Sabir Allahquliyev fərqlənib. Dünya çempionatı sentyabrın 14-dək davam edəcək.

Azərbaycan - Bolqarıstan oyununu israilli hakimlər briqadası idarə edəcək



Futbol üzrə "Avro-2016"-nın seçmə mərhələsi çərçivəsində Azərbaycan - Bolqarıstan oyununu idarə edəcək hakimlər müəyyənləşib. AzərTAc xəbər verir ki, sentyabrın 9-da "Bakcell Arena"da keçiriləcək oyunu israilli baş hakim Alon Yefet idarə edəcək. Ona həmyerliləri Danny Krasikov, David Elias Bitton və Nissan Davidy kömək edəcəklər. Matçın hakim-inspektoru Krister Fallström (İsveç), UEFA nümayəndəsi isə Jevgenijs Milevskis (Latviya) olacaq.

"Baku Open 2014" Beynəlxalq şahmat festivalında C turniri start götürür

Respublika Şahmat Mərkəzində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 23-cü ildönümünə həsr olunmuş "Baku Open 2014" Beynəlxalq şahmat festivalında C turniri (12 yaşadək uşaqlar arasında) start götürüb. Azərbaycan Şahmat Federasiyasından AzərTAc-a bildiriblər ki, turnirdə Özbəkistan və Qırğızıstandan, həmçinin ölkəmizin müxtəlif şəhər və rayonlarından 114 zəka sahibi qələbə uğrunda mübarizə aparacaq. Turnir İsveçrə sistemi üzrə 9 turdan ibarət olaraq keçiriləcək və sentyabrın 14-də başa çatacaq.

Azərbaycan yığması Rio-de-Janeyro-2016-ya 2 lisenziya qazanıb

Azərbaycan millisi 2016-cı ildə Rio-de-Janeyroda keçiriləcək XV Yay Paralimpiya Oyunlarına 2 lisenziya qazanıb. Paralimpiya Komitəsindən apasport.az saytına verilən məlumata görə, yığmamız bu uğura ABŞ-ın Kolorado ştatının Springs şəhərində keçirilən cüdo üzrə dünya çempionatının ilk günündə imza atıb. Belə ki, komandamızın heyətində Bayram Mustafayevlə (66 kq) Ramin Qasımov (73 kq) bütün rəqiblərinə qalib gələrək, qızıl medala layiq görülüblər. Bu isə onların Paralimpiadaya vəsiqə qazanmaları ilə nəticələnib.

Onlardan fərqli, Səbinə Abdullayeva bu şansı son anda əldən verib. 57 kq çəki dərəcəsində qüvvəsini sınayan cüdoçumuz finalda uduzduğundan lisenziyaya sahib ola bilməyib və gümüş medalla kifayətlənib.

Hazırladı:
Ə.MƏHƏRRƏMOĞLU

Döyüşən sətirlər

Azərbaycan əsgəri, yolun zəfər yoludur

Bu yurdun hər qayası basılmayan ordudur,
Hər daşından dikəlir babaların nərəsi.
Hər cığırı, hər izi tarix qədər uludur,
Duyulur zərrəsindən Dədə Qorqud nəfəsi.

Torpağında, daşında ulu türkün izi var,
At üstündə keçibdir yolları qarış-qarış.
Düşməninə düşməndir, dostuna dost olubdur,
Atatürkdən mirasdır cahana sülh və barış.

Siyasət meydanında ulu öndər tək idi,
Qibtə edərdi ona dünyanın liderləri.
Bu torpağa əkdiyi solmayan çiçək idi,
Yurda ətir saçırdı ilin hər fəsilləri.

Oğullar sənə görə canını əsirgəməz,
Hər birinin ürəyi sənlə döyünür, Vətən!
Azərbaycan əsgəri, yolun zəfər yoludur,
Səninlə fəxr eləyir, sənlə öyünür Vətən!

Ramazan SƏMƏROĞLU

Mən şəhid oğluyam!

Bir zamanlar uşaq idim,
Düşməyirdim bunu başa.
Atam niyə şəhid oldu?
Söyləyirdim, dağa-daşa.
Mən də ata istəyirdim, -
Ayrı gözlə baxmaq üçün
bu həyata - istəyirdim.
Atasızlıq böyük dərddi;
Atasının hünəriylə,
Öyünərkən hər bir uşaq,
Boylandım dörd bir yana
Yazıq-yazıq, yetim-yetim:
"Olmayaydı ölüm-itim..."...
Gülü vaxtsız solanlar da,
Əri şəhid olanlar da
Başı uca dolanacaq
Dərdi dərdə sala bildi...
Qüruruyla el içində
Bir yaxşı ad ala bildi,
Vətənə and içənlərin
Sırasında mən də varam.
Vətən üçün düzdə yeləm,
Dağda qaram.
And içmişəm, ata, mən də,
Millət üçün yaşayacam,
Lazım gəlsə sənin kimi
Şəhidliyə yol alacam.
Adın varmış bu yerlərdə.
Qayalarda, dərələrdə.
Qəlbin yandı, alovlandı
Dövlət üçün, millət üçün.
Dünənlərdən sabahlara
Gəlib çatan heyrət üçün.
Yağılardan şəhidlərin
Qisasını alasıyam!
Axı, şəhid balasıyam!..

Rasim AYXAN,
"N" hərbi hissəsinin
zabiti

Hərbi xidmət müddətində test

Siz vacib bir imtahan verirsiniz: Vətən borcu imtahanı. Tələbə adından da qürurla səslənən əsgər adı daşıyırsınız.

Təkrar biliyin anasıdır. Bu mənada bəzi bilgiləri elə hərbi xidmət müddətində də təkrarlamaq imkanınız var. Bu imkanı sizlərə Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi ilə "Azərbaycan Ordusu" qəzetinin "Hərbi xidmət müddətində test" birgə layihəsi verir. Testlər həftədə bir dəfə təqdim olunacaq (tarix, ədəbiyyat, mədəniyyət üzrə).

Növbəti həftəyə kimi göndərilən cavablar nəzərə alınacaq. Gecikənlər (poçt göndərişinin üzərindəki möhürə əsasən) nəzərə alınmayacaq.

Müsabiqəyə ilin sonunda, Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində yekun vurulacaq. Həmin müddətdə ən çox bal toplayan əsgərlər mükafatlandırılacaq:

I yer - 150 AZN
II yer - 100 AZN
III yer - 50 AZN

"Azərbaycan Ordusu"

1. Azərbaycan sərkərdələrinin yaşadığı dövrə müvafiq düzgün sıralanma hansıdır?

a) Xətai, Cavanşir, Cavad xan; b) Cavad xan, Xətai, Cavanşir; c) Cavanşir, Xətai, Cavad xan

2. Azərbaycan Demokratik Respublikasının ilk hərbi naziri kim olub?

a) Əliağa Şıxlinski;
b) Səmədbəy Mehmandarov;
c) Cəmşid Naxçıvanski

3. Bəzz qalasının ilk sərkərdəsi kim olub?

a) Babək; b) Cavidan;
c) Avşin

4. Çaldıran döyüşü neçənci ildə olub?

a) 1515; b) 1504; c) 1514

5. AKM avtomatı neçə hissədən ibarətdir?

a)4; b)10; c)12

6. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində neçə hərbi Nizamnamə var?

a) 8; b) 10; c) 12

7. "Azərbaycanın Milli Qəhrəmanı" adının müəyyən edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı nə vaxt verilib?

a) 25 mart 1992;
b) 19 iyun 1994;
c) 26 sentyabr 2005

8. C.Naxçıvanski adına Hərbi Lisey neçənci ildə yaradılıb?

a) 1969; b) 1971; c) 1973

9. Azərbaycanda ilk qədim insan məskəni haradır?

a) Qobustan; b) Azıx;
c) Avey

10. Əlincə qalası hansı əsrə aiddir?

a) orta əsrlərə;
b) erkən orta əsrlərə;
c) eramızın I minilliyinə

11. Cavanşir hansı dövlətin hökmdarı idi?

a) Ağvan; b) Alban;
c) Girdman

12. Azərbaycanın ilk hərbi təyyarəçisi kim olub?

a) Hüseynbala Əliyev;
b) Fərruxağa Qayıbov;
c) Məzahir Abbasov

13. Səfəvilər dövlətinin paytaxtı hansı şəhər idi?

a) Təbriz; b) Tehran;
c) Ərdəbil

14. Bakı daşnaklardan, ingilislərdən nə vaxt azad edildi?

a) sentyabr, 1918;
b) may, 1920;
c) aprel, 1919

15. Azərbaycanın ilk Milli Qəhrəmanı kim olub?

a) Salatın Əsgərova;
b) Çingiz Mustafayev;
c) Məhərrəm Seyidov

16. Hansı Azərbaycan ədibi çar Rusiyasının zabiti olmayıb?

a) Mirzə Fətəli Axundov;
b) Mirzə Şəfi Vazeh;
c) Abasqulu ağa Bakıxanov

17. Rusca-azərbaycanca ilk hərbi lüğəti kim tərtib edib?

a) Səmədağa Mehmandarov;
b) Üzeyir Hacıbəyov;
c) Əliağa Şıxlinski

18. Azərbaycanda ilk hərbi məktəb neçənci ildə yaradılıb?

a) 1920; b) 1965; c) 1918.

Məsul katib
mayor
İlham BEHBUDOV

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

Ünvanımız
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
leytenant
Ceyhun CƏFƏRLİ

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 289
Nüsxə 4570